# Beynəlxalq Olimpiya Komitəsi Azərbaycandan üzr istəyib

Beynəlxalq Olimpiya Komitəsi (BOK) "Paris-2024" Yay Olimpiya Oyunlarının açılış mərasiminin şərhi zamanı "France2" telekanalının müxbirinin işlətdiyi ifadələrə görə Azərbaycandan üzr istəyib.

Azərbaycan Gənclər və İdman Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, məktubda qeyd edilib ki, bu cür sözlər Beynəlxalq Olimpiya Komitəsinin idman və Olimpiya Oyunları vasitəsilə təbliğ etdiyi prinsip və dəyərlərə ziddir. Buna görə də bu məsələyə cavabdeh qurum və şəxslərlə əlaqə saxlanılıb və gələcəkdə belə hallara yol verilməməsi üçün BOK-un iş prinsipi və protokolları xatırladılıb.

"Paris-2024" Yay Olimpiya Oyunlarının yayımçısı olan "France 2" telekanalının ölkəmizə qarşı tutduğu qərəzli mövqeyə və bu hadisədən Beynəlxalq Olimpiya Komitəsinin Azərbaycana üzrxahlıq məktubunu nəzərə alaraq, Fransa hökumətinin də Azərbaycandan rəsmi üzr istəməsini gözləyirik", - deyə Gənclər və İdman Nazirliyindən bildirilib.

International Olympic Committee
NOC Relations Department

Farid Gayibov
Minister of Youth and Sports
Republic of Azerbaijan
Chingiz Huseynzade
Vice-President National Olympic Committee Republic of Azerbaijan
Baku, Azerbaijan

Lausanne, 02 August 2024

Dear Minister Gayibov, Dear Mr. Huseynzade,

Thank you for your letter of 27 July 2024, addressed to the IOC President, Mr Thomas Bach.

We would like to take this opportunity to convey our most sincere apologies for the words used by the reporters of France2 television during the retransmission of the Paris 2024 Olympic Games Opening Ceremony. Such words are not in line with the principles and the values that the International Olympic Committee promotes through sport and through the Olympic Games. Consequently, we have been in contact with all the responsible parties to remind them about our principles and working protocols.

Please rest assured that clear indications have been delivered to avoid any future references using similar terms.

We are most grateful for your kind understanding, and we wish you all the best for successful results for your athletes during the Paris 2024 Olympic Games.

Yours sincerely,

James Macleod
Director of NOC Relations

Maison Olympique, 1007 Lausanne, Switzerland | Tel. +41 21 621 6111 | Fax +41 21 621 6216 | www.IOC.org

Azərbaycan.- 2024.- 3 avqust (№ 163).- S.1.